*Məhkəmə-Hüquq Şurasının 2026-cı il 28 aprel tarixli Qərarı ilə təsdiq edilmişdir.*

# Azərbaycan Respublikasının məhkəmələrində monitorinqin aparılması Qaydaları

## I. Ümumi müddəalar

**1.** Bu Qaydalar Məhkəmə-Hüquq Şurasının “Məhkəmələr və hakimlər haqqında” Azərbaycan Respublikası Qanununun 86, 93-1 və 112-ci, “Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikası Qanununun 1, 11.0.3, 11.0.4-4, 12.0.7, 13.6 və 19-cu maddələrində nəzərdə tutulmuş səlahiyyətlərinin həyata keçirilməsi məqsədilə hakimlərin fəaliyyətinin, habelə məhkəmə sədrlərinin, sədr müavinlərinin, məhkəmə kollegiyaları sədrlərinin (bundan sonra – inzibati vəzifə tutan hakimlərin) inzibati səlahiyyətlərinin icrası üzrə fəaliyyətinin monitorinqinin aparılmasını müəyyən edir.

**2.** Bu Qaydalar Avropa Hakimlərinin Məşvərətçi Şurasının (CCJE) “Məhkəmə hakimiyyətinin müstəqilliyi və hakimlərin vəzifədən kənarlaşdırılmasının yolverilməzliyi ilə bağlı standartlar haqqında” 2001-ci il tarixli 1 nömrəli, “Hakimlərin peşəkar fəaliyyətini tənzimləyən prinsiplər və qaydalar, xüsusilə etika, hakim fəaliyyəti ilə bir araya sığmayan davranış və qərəzsizlik barədə” 2002-ci il tarixli 3 nömrəli, “Cəmiyyətə xidmət edən məhkəmə şurası haqqında” 2007-ci il tarixli 10 nömrəli, “Hakimlərin fəaliyyətinin, ədalət mühakiməsinin keyfiyyətinin və məhkəmə sisteminin müstəqilliyinə riayət edilməsinin qiymətləndirilməsinə dair” 2014-cü il tarixli 17 nömrəli və “Hakimlərin intizam məsuliyyəti haqqında” 2024-cü il tarixli 27 nömrəli Rəyləri, Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) “Ədalət mühakiməsinin keyfiyyətinin ölçülməsinə dair” Rəhbər Qaydaları və “Hakimlərin fəaliyyətinin keyfiyyətinin qiymətləndirilməsinə dair” Təlimatı ilə müəyyən edilmiş tövsiyələr nəzərə alınmaqla hazırlanmışdır.

**3.** Monitorinq “Məhkəmələr və hakimlər haqqında” və “Məhkəmə-Hüquq Şurası haqqında” Azərbaycan Respublikasının qanunlarına, “Hakimlərin fəaliyyətinin qiymətləndirilməsi qaydaları və metodologiyası”na, habelə bu Qaydalara uyğun olaraq həyata keçirilir.

**4.** Monitorinq ədalət mühakiməsinin keyfiyyətinin və məhkəmə fəaliyyətinin səmərəliliyinin artırılması, sistem xarakterli problemlərin aşkar olunması, habelə məhkəmə sistemində idarəçiliyin təkmilləşdirilməsi məqsədilə həyata keçirilir.

**5.** Monitorinq aşağıdakı prinsiplərə riayət edilməklə həyata keçirilir:

**5.1.** qanunçuluq;

**5.2.** hakimlərin müstəqilliyi;

**5.3.** hakimlərin qərarvermə fəaliyyətinə müdaxilənin yolverilməzliyi;

**5.4.** qərəzsizlik;

**5.5.** şəffaflıq;

**5.6.** mötəbərlik;

**5.7.** obyektivlik;

**5.8.** obyektiv müşahidəçilik;

**5.9.** hesabatlılıq.

## II. Monitorinqin növləri və aparılması qaydaları

**6.** Monitorinq növbəti, təkrar və (və ya) növbədənkənar qaydada həyata keçirilir.

**7.** Növbəti və təkrar monitorinq Hakimlərin Qiymətləndirilməsi Komitəsinin (bundan sonra - Komitə) sifarişi əsasında "Hakimlərin fəaliyyətinin qiymətləndirilməsi qaydaları və metodologiyası"na uyğun olaraq aparılır.

**8.** Növbədənkənar monitorinq - məhkəmə qərarlarının mahiyyətinin araşdırılması istisna olunmaqla, hakimlər tərəfindən əmək və icra intizamına, hakim etikasına riayət edilməsinin və inzibati səlahiyyətlərin həyata keçirilməsi ilə bağlı fəaliyyətin yoxlanılmasıdır.

**9.** Növbədənkənar monitorinq onu həyata keçirən orqan tərəfindən aşağıdakılar əsasında aparıla bilər:

**9.1.** qanunla intizam icraatının başlanılması barədə müraciət hüququ olan şəxslərdən daxil olmuş məlumatlar;

**9.2.** fiziki və hüquqi şəxslərin şikayətləri;

**9.3.** mediada dərc olunmuş məlumatlar;

**10.** Növbədənkənar monitorinq yalnız onun aparılmasına əsas olmuş halların yoxlanılması ilə məhdudlaşır.

**11.** Monitorinq məhkəmələrdə yerində və ya "Elektron məhkəmə" informasiya sisteminin imkanlarından istifadə edilməklə həyata keçirilir.

**12.** Monitorinq bilavasitə məhkəmə işinin materialları və digər sənədlər üzrə yoxlamalar, işlər üzrə "Elektron məhkəmə" informasiya sistemi üzərində olan məlumatların əldə edilməsi, məhkəmə iclaslarının video-audio yazısının araşdırılması, müraciət edən subyekt tərəfindən təqdim edilmiş məlumatların yoxlanılması, mediada dərc edilmiş məlumatın dəqiqləşdirilməsi, fəaliyyətinin monitorinqi aparılan şəxsin yoxlanılan işlər üzrə mövqeyinin öyrənilməsi yolu ilə bu Qaydalarda nəzərdə tutulmuş prinsiplər gözlənilməklə həyata keçirilir. Monitorinq aparılarkən Məhkəmə-Hüquq Şurasına daxil olmuş müraciətlərdən, Məhkəmə-Hüquq Şurasının üzvlərinin və yuxarı instansiya məhkəmələrinin malik olduqları məlumatlardan istifadə oluna bilər.

**13.** Aparılan monitorinqin nəticələrinə dair Məlumat tərtib edilir.

**14.** Monitorinqin nəticələri fəaliyyəti yoxlanılan şəxs üçün əlçatan olmalıdır. Fəaliyyəti yoxlanılan şəxsin monitorinqə dair yazılı təklif və izahatlarını 3 (üç) iş günü müddətində monitorinq aparan Qrup üzvünə təqdim etmək hüququ vardır. Həmin sənədlər monitorinq materiallarına əlavə olunur və aidiyyəti üzrə qərar qəbul edilərkən qiymətləndirilir.

**15.** Monitorinqin nəticələri bu Qaydaların 14-cü bəndi nəzərə alınmaqla konfidensialdır və açıq informasiya ehtiyatlarında dərc edilmir.

**16.** Fəaliyyəti yoxlanılan şəxsin xəstə olması, məzuniyyətdə və ya ezamiyyətdə olması, habelə digər səbəblərdən işdə olmaması monitorinqin aparılmasına mane olmur.

**17.** Monitorinq zamanı məxfi sənədlərlə iş Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 19 yanvar tarixli 179 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında məxfi sənədlərlə iş üzrə kargüzarlığın aparılması Qaydası"na uyğun olaraq həyata keçirilir.

**18.** Monitorinqi həyata keçirən orqan növbəti və təkrar monitorinqlər zamanı

Komitənin sorğusu, növbədənkənar monitorinq zamanı isə zəruri hesab etdiyi hallarda öz təşəbbüsü ilə məhkəmələrdə hakim və məhkəmə aparatı işçiləri arasında anonimlik təmin edilməklə sorğular keçirə və ya məlumatlar toplaya bilər.

## III. Monitorinq işinin təşkili

**19.** Monitorinq hakim üzvlərdən ibarət Monitorinq Qrupu tərəfindən həyata keçirilir.

**20.** Monitorinq Qrupu üzvləri Məhkəmə-Hüquq Şurası tərəfindən Şuranın Aparatına ezam olunmuş hakimlər sırasından seçilən 6 hakimdən ibarət tərkibdə formalaşdırılır. Monitorinq Qrupunun rəhbəri Məhkəmə-Hüquq Şurası tərəfindən Qrupun üzvləri sırasından təyin edilir.

**21.** Zəruri hallarda Monitorinq Qrupunun fəaliyyətinə Şuranın Aparatına ezam olunmuş digər hakimlər cəlb edilə bilərlər.

**22.** Monitorinq Qrupunun üzvlərinin səlahiyyət müddəti Məhkəmə-Hüquq Şurasının Aparatına qanunla müəyyən olunmuş ezam müddəti ilə məhdudlaşır.

**23.** Monitorinq Qrupunun ən azı 4 üzvü iştirak etdikdə səlahiyyətli sayılır. Qərarlar səsvermə yolu ilə, səsvermədə iştirak edən Monitorinq Qrupunun üzvlərinin sadə səs çoxluğu ilə qəbul edilir. Monitorinq Qrupunun rəhbəri axırıncı səs verir. Səslər bərabər olduqda Monitorinq Qrupunun rəhbərinin səsi həlledici olur.

**24. Monitorinq Qrupunun üzvlərinin vəzifələri:**

**24.1.** monitorinq zamanı Azərbaycan Respublikasının qanunvericiliyini, "Hakimlərin fəaliyyətinin qiymətləndirilməsi qaydaları və metodologiyası"nı və bu Qaydaları rəhbər tutmaq;

**24.2.** maraqlarına toxunan, habelə onun qərəzliliyinə əsas verə bilən hallar olduqda, özünün monitorinqdə iştirakına etiraz etmək;

**24.3.** monitorinq zamanı bütövlükdə monitorinq prosesinin, o cümlədən əldə olunan məlumatların və monitorinqin nəticələrinin konfidensiallığını təmin etmək;

**24.4.** monitorinq zamanı təqdim olunmuş bütün sənədləri yoxlama materiallarına əlavə etmək;

**24.5.** monitorinqin nəticələrinə dair Məlumat tərtib etmək;

**24.6.** Məlumatın təsdiq edilməsi üzrə səsvermədə iştirak etmək və imzalamaq;

**24.7.** monitorinq nəticəsində aşkar edilmiş hüquqpozmaların qarşısının alınması üzrə Məhkəmə-Hüquq Şurasına təkliflər vermək;

**24.8.** məhkəmələrin fəaliyyəti ilə bağlı Məhkəmə-Hüquq Şurasına daxil olmuş müraciətlərə baxmaq və səlahiyyətləri çərçivəsində araşdırmaq;

**24.9.** Məhkəmə-Hüquq Şurasına daxil olmuş məlumatlar üzrə ilkin araşdırma aparmaq, pozuntu aşkar edildikdə arayışlar hazırlamaq və müvafiq təkliflər vermək;

**24.10.** monitorinq zamanı aşkar edilmiş sistem xarakterli pozuntuları ümumiləşdirərək Məhkəmə-Hüquq Şurasına təqdim etmək.

**25. Monitorinq Qrupunun üzvlərinin hüquqları:**

**25.1.** məhkəmə işlərinin materialları və digər sənədlərlə tanış olmaq, onların surətlərini yoxlama materiallarına əlavə etmək;

**25.2.** "Elektron məhkəmə" informasiya sistemi üzərindən məhkəmələrin və (və ya) hakimlərin icraatında olan iş və sənədlərə daxil olmaqla, yoxlama aparmaq;

**25.3.** məhkəmə iclaslarının video-audio yazısı ilə tanış olmaq və real vaxt rejimində məhkəmə iclaslarını izləmək;

**25.4.** zərurət olduqda fəaliyyəti yoxlanılan şəxsin yazılı münasibətini öyrənmək;

**25.5.** monitorinq işinin təşkili və monitorinqin nəticələrinə dair Məhkəmə-Hüquq Şurasına təkliflər vermək;

**25.6.** zərurət olduqda monitorinqin aparılmasına mütəxəssislər cəlb etmək;

**25.7.** monitorinqin səmərəli təşkili və həyata keçirilməsi üçün zəruri olan digər məsələləri öz səlahiyyətləri çərçivəsində həll etmək.

## IV. Monitorinqin nəticələrinin rəsmiləşdirilməsi

**26.** Növbəti və təkrar monitorinqlərin nəticələrinə dair Məlumat Komitəyə, növbədənkənar monitorinqin nəticələrinə dair Məlumat isə Məhkəmə-Hüquq Şurasına təqdim edilir.

**27.** Monitorinqin nəticələrinə dair Məlumatda aşağıdakılar əks etdirilir:

**27.1.** Məlumatın başlığı (monitorinqin növü və aid olduğu məsələ);

**27.2.** Məlumatın tərtib edildiyi tarix və yer;

**27.3.** monitorinqin aparılmasının əsası;

**27.4.** monitorinq aparan Monitorinq Qrupunun üzvünün (üzvlərinin) soyadı, adı və atasının adı, vəzifəsi;

**27.5.** monitorinqin dairəsi (predmeti);

**27.6.** monitorinq zamanı yoxlanılmış məhkəmə işləri və digər sənədlər;

**27.7.** monitorinq zamanı müəyyən edilmiş hallar və bu halları təsdiq edən sübutlar;

**27.8.** fəaliyyəti yoxlanılan şəxsin münasibəti (təqdim edildiyi təqdirdə);

**27.9.** monitorinq aparan Monitorinq Qrupunun üzvünün (üzvlərinin) əlavə qeydləri;

**27.10.** Monitorinq Qrupunun üzvlərinin imzaları.

**28.** Növbəti və təkrar monitorinqlərin nəticələrinə dair Məlumat sorğuda əks olunmuş hakimlərin qiymətləndirmə müddətinin sonuncu gününə ən azı 60 gün qalmış Komitəyə təqdim edilir.

**29.** Məlumat monitorinqin başa çatdığı gündən 3 (üç) iş günündən gec olmayaraq monitorinq aparan Monitorinq Qrupunun üzvü (üzvləri) tərəfindən tərtib olunaraq, tanış olması üçün fəaliyyəti yoxlanılan şəxsə təqdim olunur.

**30.** Məlumat monitorinqi aparmış Monitorinq Qrupunun bütün üzvləri tərəfindən tərtib olunduğu gün, fəaliyyəti yoxlanılan şəxs tərəfindən isə təqdim olunduqdan 3 (üç) iş günündən gec olmayaraq imzalanır.

**31.** Fəaliyyəti yoxlanılan şəxsin Məlumatla tanış olmaqdan və ya imzalamaqdan imtina etməsi həmin Məlumatın monitorinq aparan Monitorinq Qrupunun üzvü (üzvləri) tərəfindən bu barədə müvafiq təsdiqedici akt əlavə edilməklə aidiyyəti üzrə təqdim olunmasını istisna etmir.

**32.** Monitorinq Qrupunun üzvlərindən hər hansı biri və ya bir neçəsi monitorinqin nəticələrinə dair Məlumatla razı olmadıqda, o (onlar), öz rəy(lər)ini Məlumata əlavə olunması üçün yazılı şəkildə təqdim etmək hüququna malikdir(lər).